Təsdiq edirəm
ADMİU-nun rektoru
_________Professor Ceyran Mahmudova
“ 12 ” “ sentyabr ” 2025-ci il

# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

ADMİU

## MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

## T Ə H S İ L   P R O Q R A M I

**7003014 – Populyar musiqi və caz ifaçılığı ixtisasının**
**Vokal ixtisaslaşması**

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.**

**BAKI – 2025**

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003014 – Populyar musiqi və caz ifaçılığı ixtisası (vokal ixtisaslaşması) üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;

- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;
- tarixi, nəzəri, praktik və müasir zamanın tələblərinə uyğun biliklərə malik olmaqla populyar və caz musiqisinin inkişafı və təbliği istiqamətində yüksək səviyyədə fəaliyyət göstərmək;
- caz vokal-instrumental kollektivlərini ("Big Band", "Jazz Band" və s.) təşkil edə bilmək; o Azərbaycan klassik estrada musiqisi, dünya pop musiqisi və caz janrlarının spesifik xüsusiyyətlərini elmi-nəzəri baxımdan təhlil etmək, müqayisəli şəkildə araşdırmaq və fəaliyyətində tətbiq edə bilmək.

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

***Populyar musiqi və caz ifaçılığı (Vokal) ixtisaslaşması üzrə:***

- müxtəlif səs tembrlərinə (kişi, qadın və uşaq) aid geniş, populyar musiqi və caz-vokal janrlarını əhatə edən solo və ansambl ifaları üçün müstəqil repertuar hazırlama prinsiplərini bilmək və təqdim etməyi bacarmaq;
- səsin yaşa və cinsə görə xüsusiyyətlərini nəzərə alaraq metodik yanaşmaları tətbiq edə bilmək; - populyar musiqi və caz ifaçılığının müasir istiqamətləri üzrə yaradıcılıq araşdırmaları aparmaq, yaradıcılıq layihələri hazırlaya bilmək;
- vokal əsərlərinin bədii və texniki xüsusiyyətlərini müstəqil şəkildə təhlil etmək;
- caz-vokal janrında ekstremal vokal texnikasından istifadə edə bilmək;
- müxtəlif auditoriyalar üçün professional səviyyədə konseptual konsert proqramları tərtib edərək musiqi dramaturgiyası qanunlarına uyğun şəkildə təqdim etmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| o Populyar musiqi və caz ifaçılığı (Vokal) | Magistr ali elmi-ixtisas | 1.5 il | 90 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 2 | **Layihələrin idarə olunması**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| 3 | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər**<br>**İxtisas - populyar musiqi və caz ifaçılığı 1**<br>*Populyar musiqi və caz ifaçılığı ixtisası müasir musiqi mədəniyyətinin nəzəri və praktik prinsiplərini, ifaçılıq texnikasını, həmçinin yaradıcı interpretasiya üsullarını öyrədən peşəkar istiqamətdir. Bu ixtisas vokal bacarıqları inkişaf etdirməklə yanaşı, onları səhnə, studiya və konsert fəaliyyəti üçün yüksək ixtisaslı mütəxəssis kimi formalaşdırır.*<br>*Şübhəsiz ki, Azərbaycan vokal məktəbi başqalarından ifa üslubu və koloriti ilə fərqlənir. Azərbaycan vokalçıları xalqımız üçün doğma olan milli koloriti qoruyub saxlamalıdır. Bu baxımdan praktiki vərdişlərə yiyələnməklə yanaşı, yaradıcılıq təxəyyülünün tərbiyəsi, bədii zövqün, geniş dünyagörüşünün formalaşdırılması da bu fənnin öhdəsinə düşür.* | 12 |

| | | |
|---|---|---|
| | **İxtisas - populyar musiqi və caz ifaçılığı 2**<br>*Bu fənn magistrantların caz və populyar musiqi sahəsində ifaçılıq bacarıqlarının daha yüksək səviyyədə inkişaf etdirilməsinə yönəlmişdir. Fənn çərçivəsində improvizasiya texnikaları, ritm və harmoniya anlayışlarının dərinləşdirilməsi, stilistik xüsusiyyətlərin mənimsənilməsi əsas yer tutur. Magistrantlar müxtəlif dövrlərə və üslublara aid caz və pop repertuarını ifa edərək səhnə təcrübəsi qazanırlar. Eyni zamanda, ansambl daxilində qarşılıqlı musiqi əlaqəsi, dinamik balans və interpretasiya bacarıqları formalaşdırılır. Fənn magistrantların fərdi ifa üslubunun inkişafına və peşəkar səhnə fəaliyyətinə hazırlığına xidmət edir.* | |
| 4 | **Yaradıcılıq işi**<br>*"Yaradıcılıq işi" populyar musiqi və caz ifaçılığı ixtisası üzrə ifa mədəniyyətini sistemli şəkildə inkişaf etdirir. Fənn çərçivəsində repertuar seçimi prinsipləri araşdırılır, caz janrında improvizasiya bacarıqları elmi-metodik prinsiplər əsasında tətbiq edilir. Repertuar üzrə çalışmalar ifa keyfiyyəti və səhnə davranışı üzrə kompleks şəkildə qiymətləndirilir. Fənn repertuar üzərində işləmədə yaradıcı yanaşmanı və ifa mədəniyyəti yüksəldir. Caz solfeciosu və ritmik strukturlar elmi yanaşma ilə öyrədilir. Caz janrında ifa olunan caz standartlar üzrə aparılan məşğələlər, improvizasiya (scat) ifa bacarığını gücləndirir. Səsin quruluşunun texniki hazırlığında vokal texniki vərdişlər xüsusi diqqətlə inkişaf etdirilir. Fənn vokal texnikasının inkişafında metodik ardıcıllığa əsaslanır. Fənn yaradıcı potensialı genişləndirərək ifa keyfiyyətini yüksəldir. Nəticədə yaradıcılıq fəaliyyətində elmi-metodik baxış formalaşır. Əldə olunan bacarıqlar səhnə təqdimatında peşəkar şəkildə təqdim olunur.* | 6 |
| 5 | **Populyar musiqi və caz ifaçılığının müasir istiqamətləri**<br>*"Populyar musiqi və caz ifaçılığının müasir istiqamətləri" kursu magistr pilləsində "Populyar musiqi və caz ifaçılığı" ixtisası üzrə təhsili alanlar üçün nəzərdə tutulmuşdur. Bu fənnin keçirilməsi populyar musiqi və caz ifaçılığının əsas məzmunu və müxtəlif istiqamətlərini, onun dünya musiqi mədəniyyətinin bir sahəsi kimi mahiyyətini dərindən dərk etməyə imkan yaradır. Bir semestrlik tədris müddətində "müasir caz" anlayışı, caz ifaçılığında yeni istiqamətlər (1990-cı illərdən başlayaraq günümüzə qədər), müasir caz ifaçılığında improvizasiya texnikası, caz ifaçılığının populyar musiqinin inkişafına təsiri, müasir caz ifaçılığına postmodernist estetikanın xüsusiyyətləri kimi mövzulara dair məlumatlar verilir.* | 6 |
| 6 | **Studiyada iş**<br>*"Studiyada iş" fənni müasir musiqi sənətində audio yazı texnologiyalarının nəzəri və praktik əsaslarını əhatə edən fənndir. Bu fənn tədris prosesində səs yazısı, montaj, miks və masterinq proseslərinin texniki və yaradıcı prinsiplərini mənimsəməklə yanaşı, onların studiya şəraitində yazıya alınmasının ənənəvi texnologiyasını, səs informasiyasının yazılması prosesini, səsyazmanın mexaniki sistemini peşəkar səviyyədə öyrədir.* | 6 |

| | | |
|---|---|---|
| 7 | **Populyar musiqi və caz janrının müasir ifaçılıq texnikası**<br>*Bu fənn müasir vokal və instrumental ifaçılığın nəzəri-praktik prinsiplərini, texniki imkanlarını və yaradıcı yanaşmalarını əhatə edən fənnlərdən biridir. Səs və ifa potensialını inkişaf etdirməyə, müasir musiqi janrlarına xas olan texniki üsulları mənimsəyə və onları praktik ifa prosesində tətbiq etməyə yönəlmişdir. Populyar musiqi və caz janrında müasir texnikalarının nəzəri əsaslarını və tətbiqini mənimsəməkdir. Səhnə ifaçılığı, jest və mimika, emosional ifadəlilik və tamaşaçı ilə interaktiv əlaqə bacarıqlarını formalaşdırmaqdır.* | 6 |
| 8 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>*Ali təhsilin pedaqoji əsaslarını, müasir təlim və tərbiyə prinsiplərini, ali məktəb müəlliminin peşə fəaliyyətini və pedaqoji ustalığını mənimsətmək məqsədini daşıyır.* | 6 |
| 9 | **Duet ifaçılığı**<br>*"Duet ifaçılığı" fənni magistratura pilləsində popular musiqi və caz ifaçılığı (vokal) sənətinin praktik və nəzəri əsaslarını dərinləşdirən, iki vokal ifaçısı arasında bədii, emosional və texniki qarşılıqlı əlaqəni formalaşdıran ixtisas yönümlü fəndir. Fənn duet ifasının üslubi xüsusiyyətlərini, vokal harmoniyasını, səhnə davranışını və improvizasiya bacarıqlarını təkmilləddirməyə yönəlir. Həmçinin fənn ansambl mədəniyyəti, intonasiya dəqiqliyi, harmoniya duyumu və qarşılıqlı dinləmə bacarıqlarını inkişaf etdirir.Tədris prosesi repertuarda duet ifasının spesifik tələblərini mənimsəməsini, orijinal və yaradıcı ifa üslubu formalaşdırmasını təmin edir. Duet ifaçılığı zamanı vokal texnikasının uyğunlaşdırılması həmçinin səhnə hərəkəti və emosional ifadə vasitələrinin uyğunluğu əsas diqqət mərkəzində olur. Proqram çərçivəsində müxtəlif üslublarda - Azərbaycan klassik estrada, caz, xarici pop və xalq musiqisi janrlarında duet ifasının xüsusiyyəti öyrədilir. Nəticədə peşəkar səhnə fəaliyyətində duet və solo ifaçısı kimi peşəkar səviyyədə səhnə çıxışını təmin etmək bacarığını qazanır.* | 6 |
| 10 | **Ansambl**<br>*Bu fənn kollektiv ifaçılıq bacarıqlarını inkişaf etdirməyə yönəlmiş əsas fənnlərdən biridir. Vokal ifaçılarına musiqi kollektivində qarşılıqlı yaradıcılıq fəaliyyəti, üslubi uyğunlaşma və musiqi materialının harmonik şəkildə təqdim edilməsinə dair nəzəri biliklər və praktik vərdişlər qazandırır. Vokal və vokal-instrumental nəzəri və praktiki əsaslarını mənimsəmək, intonasiya dəqiqliyi, səs tembrinin uyğunluğu, ahəngdarlıq və balans prinsiplərinə əməl etməkdir. Ansambl fənni müasir musiqi təhsilində ifaçılıq mədəniyyətinin kompleks formalaşmasında xidmət edən fəndir. Fənn vokal və ya instrumental ifaçıların birgə yaradıcılıq fəaliyyətinə əsaslanan fəndir. Bu fənn duet ifaçılığında səhnə davranışı, akustik uyğunlaşma, və emosional əlaqənin professional səviyyədə qurulmasını təmin edir.* | 6 |

| | | |
|---|---|---|
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | 18 |
| 11 | **a) Səhnə plastikası**<br>*"Səhnə plastikası" fənni müasir musiqi və teatr təhsilində ifaçının bədən dili, hərəkət estetikası və səhnə davranış mədəniyyətinin formalaşdırılmasına yönəlmiş xüsusi fənndir. Bu fənn musiqi sənəti üzrə ifaçılıq təliminin əsas istiqamətlərindən biri olub. Bədii səhnə fəaliyyətində jestlərinin, mimikanın, səhnə məkanının və hərəkət koordinasiyasının dərk edilməsi onların səhnə davranışının peşəkar səviyyədə formlaşmasına xidmət edir.*<br>**b) Ritmika**<br>*Ritmika fənn musiqi ritmlərini qavrama, onları bədən hərəkətləri ilə uzlaşdırma və səhnə davranışında ritmik ifadəliliyi inkişaf etdirən fənndir. Bu fənn səhnə plastikası ilə birbaşa əlaqədədir, musiqi ilə hərəkətin sintezini təmin edir və ifaçının səhnə mədəniyyətini zənginləşdirir.* | 6 |
| 12 | **a) Səhnə hərəkətinin plastik həlli**<br>*"Səhnə hərəkətinin plastik həlli" fənn popular musiqi və caz ifaçılığında (vokal) səhnə davranışının, bədən plastikasının və emosional ifadəliliyin peşəkar səviyyədə formalaşdırılmasına yönəlmiş fəndir. Fənn musiqi ilə hərəkətin qarşılıqlı əlaqəsini, səhnə dramaturgiyası və bədii obrazın plastik həllini dərindən dərk etmə bacarığını inkişaf etdirir. Tədris prosesində ifaçının bədən dili, jest və mimika vasitəsilə emosional məzmunu tamaşaçıya çatdırma üsulları, səhnə məkanında sərbəst davranış, ritmik hərəkət mədəniyyəti və vokal ifa ilə plastikanın sintezi öyrədilir. Populyar musiqi və caz janrına xas səhnə ifadəliliyi, musiqi ritminə uyğun improvizasiya və xarakterik plastik hərəkətlərin yaradıcı tətbiqi xüsusi önəm daşıyır. Fənnin sonunda səhnə plastikasını vokal ifasının ayrılmaz hissəsi kimi mənimsəyib, bədii təsir gücü yüksək olan peşəkar səhnə bacarığı qazanırlar.*<br>**b) Ritmika və ansambl uyğunluğu**<br>*"Rimtika və ansambl uyğunluğu" fənni magistratura səviyyəsində popular musiqi və caz ifaçılığı (vokal) sənətində musiqi ritminin bədən hərəkəti, səhnə plastikasına və rəqs elementlərinə uyğun tətbiqini öyrədən fəndir. Fənn ritm duyumu, koordinasiya və hərəkət estetikası bacarıqlarını formalaşdırır. Tədris zamanı musiqi ilə hərəkətin sinxronluğu, temp və aksentlərin ifadəliyi, səhnə performansında plastika və ritm münasibəti praktiki şəkildə tədris olunur. Nəticədə vokal ifasını bədən plastikasına və ritmik ifadəyə uyğunlaşdıraraq, səhnə mədəniyyətini və bədii təqdimatını yüksək səviyyədə nümayiş etdirmək bacarığı qazanırlar.* | 6 |

| | | |
|---|---|---|
| 13 | **a) Caz solfeciosu**<br>*Bu fənn caz musiqisinin nəzəri və praktiki əsaslarını, melodik-intonasiya sistemini, ritmik-struktur xüsusiyyətlərini və improvizasiya prinsiplərini öyrənməyə xidmət edən tədris istiqamətidir. Fənn caz musiqisinin səs quruluşunun və vokal ifa texnikasının elmi əsaslarla mənimsənilməsini təmin etməklə yaradıcılıq potensialını inkişaf etdirməyə yönəlmişdir. Caz janrının harmonik və melodik quruluşlarını və caz harmoniyasının əsas prinsiplərini mənimsəməkdədir.*<br><br>**b) Caz harmoniyası**<br>*Bu fənn caz musiqisinin spesifik harmonik quruluşunu, akkord sistemlərini və improvizasiya əsaslarını öyrədən fənndir. Fənnin tədrisi prosesində tələbələr caz musiqisini xüsusi harmonik sistemlərini, blues, swing, bibpop və müasir caz üslublarının harmonik xüsusiyyətlərini araşdırırlar. Həmçinin improvizasiya zamanı harmoniyanın yaradıcı interpretasiyasını öyrənirlər.* | 6 |
| | **Təcrübə** | |
| 14 | **Elmi-pedaqoji təcrübə**<br>*Təcrübə müddətində pedaqoji fəaliyyətin nəzəri metodoloji əsaslarını dərindən mənimsəyərək, fənn proqramının və sillabusun tələblərinə uyğun olaraq populyar musiqi və caz ifaçılığının müasir prinsiplərini praktik tədris prosesinə tətbiq edir. Pedaqoji fəaliyyət zamanı ansambl ifaçılığı, improvizasiya, rimtik-intonasiya sistemlərinin tətbiqi, vokal texnikalarının işlənməsi və səsin idarə edilməsi kimi tədris vərdişləri uğurla reallaşdırır. O, həmçinin pedaqoji etika, ünsiyyət mədəniyyəti prinsiplərinə riayət edərək müəllim-tələbə münasibətlərində elmi-pedaqoji üslubu qoruyur.*<br>*Metodik baxımdan təcrübə müddətində metodik materiallar, təqdimatlar və praktik məşğələlər hazırlayaraq, onun elmi-pedaqoji fəaliyyətinə sistemli və yaradıcı yanaşmasını göstərir. Nəticədə popluyar musiqi və caz ifaçılığı ixtisası üzrə elmi-pedaqoji təcrübə dövründə özünü ixtisasına uyğun olaraq professional pedaqoji fəaliyyətə uyğun metodoloji düşüncə tərzinə malik, müasir tədris texnologiyalarını tətbiq edə bilən mütəxəssis kimi yetişir.* | 6 |
| **CƏMİ** | | **90** |

### 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir. Ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

***Populyar musiqi və caz ifaçılığı (Vokal) ixtisaslaşması üzrə:***
Səs rejissoru üzrə mütəxəssis; konsertmeyster; səsyazma studiyası; səsgücləndiricilər (kalonkalar), mikşer, monitorlar, mikrofonlar təmin edilməlidir.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. Populyar musiqi və caz ifaçılığı ixtisası üzrə magistratura təhsili almış mütəxəssis Mədəniyyət Nazirliyinin və digər dövlət qurumlarının nəzdində fəaliyyət göstərən orkestr və ansambllarda; Müxtəlif teatrların solisti, xor artisti; Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədi rəhbəri; Azərbaycan Dövlət Xor Kapellasında; Azərbaycan Dövlət Estrada simfonik orkestrinin bədii rəhbəri; dövlət və özəl ansambllarda solist və ya vokalçı; səsyazma studiyalarında vokalçı və ya vokal prodüseri; musiqi prodüseri, aranjimançı, ifaçı; ali təhsil müəssisələrində pedaqoq, bədii rəhbər, ifaçı; festival və müsabiqələrin təşkilatçısı; bədii rəhbər; KİV-lərdə sahə üzrə müxtəlif vəzifələrdə işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**

***Populyar musiqi və caz ifaçılığı (Vokal) ixtisaslaşması üzrə:***

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| **PTN 1.** Müxtəlif səs tembrlərinə (kişi, qadın və uşaq) aid geniş, populyar musiqi və caz-vokal janrlarını əhatə edən solo və ansambl ifaları üçün müstəqil repertuar hazırlama prinsiplərini biləcək və təqdim etməyi bacaracaq. Tarixi, nəzəri, praktik və müasir zamanın tələblərinə uyğun biliklərə malik olmaqla populyar və caz musiqisinin inkişafı və təbliği istiqamətində yüksək səviyyədə fəaliyyət göstərməyi bacaracaq. Müasir texnologiyalardan, yeni tətbiq olunan elektron vasitələrdən istifadə etməyi bacaracaq. |
| **PTN 2.** Səsin yaşa və cinsə görə xüsusiyyətlərini nəzərə alaraq metodik yanaşmaları tətbiq etməyi bacaracaq. |
| **PTN 3.** Populyar musiqi və caz ifaçılığının müasir istiqamətləri üzrə yaradıcılıq araşdırmaları aparacaq, yaradıcılıq layihələri hazırlamağı bacaracaq. |
| **PTN 4.** Vokal əsərlərinin bədii və texniki xüsusiyyətlərini müstəqil şəkildə təhlil edəcək, caz-vokal janrında ekstremal vokal texnikasından istifadə etməyi bacaracaq. |
| **PTN 5.** Caz vokal-instrumental kollektivlərini ("Big Band", "Jazz Band" və s.) təşkil etməyi bacaracaq. Müxtəlif auditoriyalar üçün professional səviyyədə konseptual konsert proqramları tərtib edərək musiqi dramaturgiyası qanunlarına uyğun şəkildə təqdim etməyi bacaracaq. |
| **PTN 6.** Azərbaycan klassik estrada musiqisi, dünya pop musiqisi və caz janrlarının spesifik xüsusiyyətlərini elmi-nəzəri baxımdan təhlil etməyi, müqayisəli şəkildə araşdırmağı və fəaliyyətində tətbiq etməyi bacaracaq. |
| **PTN 7.** Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Yüksək ixtisaslı ifaçı funksiyalarını həyata keçirəcək, vokal sahəsində elmi metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. |
| **PTN 8.** Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını biləcək. Mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmağı bacaracaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarına malik olacaq. |
| **PTN 9.** Layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətlərini, layihədə liderlik, layihə menecerinin vəzifələrini və digər məsələləri biləcək. Layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzular haqqında biliklərə malik olacaq. Layihələrin çevik idarə edilməsi ilə bağlı riskləri düzgün qiymətləndirməyi bacaracaq. "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. haqqında biliklərə malik olacaq və tətbiq etməyi bacaraq. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| Layihələrin idarə olunması fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| İxtisas - populyar musiqi və caz ifaçılığı 1 fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 Müxtəlif səs tembrlərinə uyğun repertuar seçmək və ifa etmək bacarığı yaranacaq. |
| FTN 2 Müxtəlif vokal registrlərindən səmərəli istifadə etmək bacarığı əldə ediləcək. |
| FTN 3 Populyar musiqi və caz janrlarında səs tembri fərqləndirilərək ifa ediləcək. |
| FTN 4 Musiqi frazası intonasiya dəqiqliyi ilə oxunacaq. |
| FTN 5 Caz-vokal texnikaları və improvizasiya elementləri sərbəst tətbiq ediləcək. |
| FTN 6 Peşəkar səviyyədə səhnə çıxışları həyata keçiriləcək. |

| İxtisas - populyar musiqi və caz ifaçılığı 2 fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 Populyar musiqi və caz ifaçılığının əsas üslub xüsusiyyətlərini, ritmik və harmonik quruluşunu təhlil etmək bacarığı nümayiş etdirəcək. |
| FTN 2 Caz improvizasiyasının əsas prinsiplərini tətbiq edərək müxtəlif musiqi formalarında sərbəst və yaradıcı ifa bacarığı formalaşdıracaq. |
| FTN 3 Ansambl və orkestr tərkibində peşəkar ifa qaydalarına riayət etməklə kollektiv musiqi icrasında effektiv iştirak edəcək. |
| FTN 4 Populyar və caz repertuarını üslubi cəhətdən düzgün interpretasiya edərək səhnə mədəniyyəti və artistlik keyfiyyətlərini nümayiş etdirəcək. |
| FTN 5 Müasir texnologiyalardan (məsələn, səsyazma və aranjiman proqramları) istifadə etməklə ifa prosesini təkmilləşdirir və öz ifasını analiz edəcək. |
| FTN 6 Müxtəlif musiqi janrları arasında əlaqələri müəyyən edərək fərdi ifa üslubunu formalaşdırır və yaradıcı yanaşma nümayiş etdirəcək. |

| Yaradıcılıq işi fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 Vokal texnikası repertuarın mürəkkəblilik dərəcəsinə uyğun şəkildə adaptasiya olunacaq. |
| FTN 2 Vokal partiyasının harmonik quruluşu təhlil edilərək ifada məqsədyönlü şəkildə istifadə olunacaq. |
| FTN 3 Səhnə davranışı vokal ifa tələblərinə uyğun peşəkar səviyyədə nümayiş etdirəcək. |
| FTN 4 Caz janrına məxsus improvizasiya texnikaları (scaţ və s.) elmi əsaslarla tətbiq olunacaq. |
| FTN 5 Yaradıcı interpretasiya bacarıqları müasir vokal metodologiyasına əsaslanaraq inkişaf etdiriləcək. |
| FTN 6 Vokal ifada üslub müxtəlifliyi (populyar musiqi, caz və digər janrlar) musiqi-estetik prinsiplər əsasında müqayisəli şəkildə tətbiq olunur və fərdi ifa üslubu formalaşacaq. |

| Populyar musiqi və caz ifaçılığının müasir istiqamətləri fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 Müasir musiqi janrlarının inkişaf xüsusiyyətləri öyrəniləcək. |
| FTN 2 Populyar musiqi və caz musiqisinin müasir istiqamətləri təhlil ediləcək. |
| FTN 3 Müasir populyar musiqi və caz üslubları nəzəri və praktiki cəhətdən araşdırılacaq. |
| FTN 4 Müasir ifaçılıqda istifadə olunan texniki və estetik istiqamətlər müəyyənləşdiriləcək. |
| FTN 5 Müasir populyar musiqi və caz ifaçılığında improvizasiya, interpretasiya və fərdi üslubun formalaşdırılması bacarıqları tətbiq olunacaq. |

| |
|---|
| FTN 6 Populyar musiqi və caz ifaçılığında müasir texnologiyaların (səsyazma, rəqəmsal platformalar, səhnə texnologiyaları) rolu qiymətləndirilir və praktik fəaliyyətə inteqrasiya ediləcək. |

| **Studiyada iş fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Studiya şəraitində səsyazma prinsipləri mənimsəniləcək. |
| FTN 2 Elektron cihazlardan səmərəli istifadə ediləcək. |
| FTN 3 Səs rejissoru ilə yaradıcı və texniki əməkdaşlıq qurulacaq. |
| FTN 4 Musiqi materialı studiyada peşəkar şəkildə ifa ediləcək. |
| FTN 5 Səsyazma zamanı intonasiya dəqiqliyi və emosional ifadəlilik qorunacaq. |
| FTN 6 Yaradıcı iş prosesində peşəkar davranış nümayiş etdiriləcək. |

| **Populyar musiqi və caz janrının müasir ifaçılıq texnikası fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Müasir vokal texnikaları praktiki icra ediləcək. |
| FTN 2 Populyar musiqi və caz musiqisinin ritmik-intonasiya xüsusiyyətləri mənimsəniləcək. |
| FTN 3 Ekstremal caz-vokal texnikalarından və improvizasiya üsullarından istifadə ediləcək. |
| FTN 4 Texniki çətinliklər peşəkar ustalıqla ifa ediləcək. |
| FTN 5 Müasir ifaçılıq texnikaları səhnə praktikası ilə əlaqələndiriləcək. |
| FTN 6 Vokal ifaçılıq texnikası səhnə fəaliyyətinə inteqrasiya ediləcək. |

| **Duet ifaçılığı fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Duet ifaçılığının nəzəri əsasları öyrəniləcək. |
| FTN 2 Müxtəlif vokal duet repertuarı müstəqil şəkildə hazırlanacaq. |
| FTN 3 Duet ifasında improvizasiya elementlərindən istifadə ediləcək. |
| FTN 4 Duet ifasında intonasiya dəqiqliyi, ritmik sinxronluq və dinamik balans təmin ediləcək. |
| FTN 5 Duet ifasında səhnə mədəniyyəti, tərəfdaşla qarşılıqlı ünsiyyət və interpretasiya bacarıqları formalaşdırılacaq. |
| FTN 6 Duet ifaçılığı zamanı fərdi vokal imkanlar kollektiv ifa tələblərinə uyğunlaşdırılaraq peşəkar səviyyədə təqdim olunacaq. |

| **Ansambl fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Ansambl ifaçılığı prinsipləri nəzəri və praktiki cəhətdən mənimsəniləcək. |
| FTN 2 Ansambl daxilində ritmik və harmonik uyğunluq təmin ediləcək. |
| FTN 3 Qrupdaxili musiqi ünsiyyəti və qarşılıqlı eşitmə bacarığı inkişaf etdiriləcək. |
| FTN 4 Ansambl ifaçılıq bacarığı konsert fəaliyyətində peşəkar səviyyədə təqdim ediləcək. |
| FTN 5 Ansambl repertuarı müxtəlif üslub və janr xüsusiyyətləri nəzərə alınmaqla təhlil edilir və interpretasiya olunacaq. |
| FTN 6 Ansambl ifasında səhnə mədəniyyəti, artistlik və kollektiv məsuliyyət prinsipləri formalaşdırılacaq və tətbiq ediləcək. |

| Səhnə plastikası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Səhnədə bədən dili idarə edilir və musiqi ilə əlaqələndirəcək. |
| FTN 2 Hərəkət və mimikalar vasitəsilə emosional ifadəlilik nümayiş etdiriləcək. |
| FTN 3 Musiqi ritminə uyğun plastik hərəkətlər tətbiq ediləcək. |
| FTN 4 Tamaşaçı ilə vizual və emosional ünsiyyət qurulacaq. |
| FTN 5 Səhnə davranışı və mədəniyyəti qaydalarına əməl ediləcək. |
| FTN 6 Obrazın bədii ifadəsi səhnə plastikası ilə canlandırılacaq. |

| Ritmika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Musiqi ritmləri dəqiq qavranılacaq. |
| FTN 2 Ritmlər bədən hərəkətləri ilə sinxronlaşdırılacaq. |
| FTN 3 Ritmik duyum inkişaf etdirilərək improvizasiya bacarığı tətbiq ediləcək. |
| FTN 4 Kollektiv və fərdi ifa zamanı ritmik uyğunluq qorunacaq. |
| FTN 5 Ritmik strukturların təhlili aparılaraq onların musiqi əsərlərində tətbiqi şərh ediləcək. |
| FTN 6 Müxtəlif janr və üslublarda ritmik nümunələr müqayisə edilərək yaradıcı ifa bacarıqları inkişaf etdiriləcək. |

| Səhnə hərəkətinin plastik həlli fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Səhnə plastikasının əsas prinsipləri öyrəniləcək və vokal ifası zamanı ifadəli davranış nümayiş etdiriləcək. |
| FTN 2 Populyar musiqi və caz ifaçılığı (vokal) janrına uyğun plastik ifadə vasitələri yaradıcılıqla tətbiq ediləcək. |
| FTN 3 Bədən dili, jest və mimika vasitəsilə musiqi emosiyasını tamaşaçıya ifadə etmə bacarığı formalaşdırılacaq. |
| FTN 4 Musiqi ritmi ilə hərəkət arasında əlaqə dərk edilərək, ifa zamanı sinxronluq təmin ediləcək. |
| FTN 5 Səhnə məkanında sərbəst, estetik və ifadəli davranış nümayiş etdiriləcək. |
| FTN 6 Plastik hərəkət, vokal ifa və səhnə obrazının vəhdəti təmin edilərək, bütöv və peşəkar səhnə təqdimatı formalaşdırılacaq. |

| Ritmika və ansambl uyğunluğu fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Emosional janra uyğun plastik ifadə vasitələri yaradıcılıqla tətbiq ediləcək. |
| FTN 2 Vokal ifa ilə səhnə hərəkətinin dramaturji uyğunluğunun qurulma bacarığı əldə ediləcək. |
| FTN 3 Fərdi və ansambl ifasında hərəkət koordinasiyası, səhnə nizamı və ritmik dəqiqlik qorunacaq. |
| FTN 4 Tamaşaçı ilə vizual və emosional əlaqə yaratmaq üçün səhnə plastikasından məqsədyönlü istifadə ediləcək. |
| FTN 5 Səhnə davranışı, hərəkət mədəniyyəti və bədii təqdimat peşəkar səviyyədə formalaşdırılacaq. |

| |
|---|
| FTN 6 Musiqili ritm, dinamika və tempo dəyişikliklərinə uyğun olaraq səhnə hərəkətlərinin sinxronlaşdırılması və ansambl daxilində qarşılıqlı uyğunluğun təmin edilməsi bacarığı inkişaf etdiriləcək. |

| Caz solfeciosu fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Caz musiqisinin ritmik və melodik quruluşu oxunacaq. |
| FTN 2 İnterval və akkordlar caz üslubunda intonasiya ediləcək. |
| FTN 3 Swing ritminin nəzəri və praktiki əsasları mənimsəniləcək. |
| FTN 4 Harmonik çevrilmələr solfecio vasitəsilə tətbiq ediləcək. |
| FTN 5 İmprovizasiya üçün melodik material qurulacaq və ifa ediləcək. |
| FTN 6 Caz ifaçılığı üçün nəzəri biliklər praktik fəaliyyətə inteqrasiya ediləcək. |

| Caz harmoniyası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Caz harmoniyasının nəzəri əsasları və inkişaf mərhələləri öyrəniləcək. |
| FTN 2 Harmonik quruluş əsasında improvizasiya bacarığı inkişaf etdiriləcək. |
| FTN 3 Caz musiqisində istifadə olunan akkord sistemləri və harmonik proqressiyalar mənimsəniləcək. |
| FTN 4 Caz harmoniyası üzrə nəzəri biliklər praktik ifaçılıqda tətbiq ediləcək. |
| FTN 5 Müxtəlif caz üslublarında (blues, bebop, swing və s.) harmonik xüsusiyyətləri təhlil ediləcək və müqayisə ediləcək. |
| FTN 6 Verilmiş melodik material üzərində harmonizasiya aparacaq və orijinal harmonik həllər yaradacaq. |

| Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2. Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3. Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4. Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |
| FTN 5. Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6. Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

Əlavə 2

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 |
| Tədqiqat metodları | X | | | | | | | | |
| Akademik yazı və etika | | | X | | | | | X | |
| Layihələrin idarə olunması | | | X | | | | | | X |
| İxtisas - populyar musiqi və caz ifaçılığı 1 | X | X | | X | | X | X | | |
| İxtisas - populyar musiqi və caz ifaçılığı 2 | X | X | | X | | X | X | | |
| Popluyar musiqi və caz ifaçılığının müasir istiqamətləri | | | X | | | X | | | |
| Studiyada iş | X | X | | | | | | | |
| Popluyar musiqi və caz ifaçılığının müasir ifaçılıq texnikası | | | | X | | | | | |
| Duet ifaçılığı | X | | | | X | X | | | |
| Ansambl | X | | | | X | X | | | |
| Səhnə plastikası | | | | | X | | | | |
| Ritmika | X | | | | | | X | | |
| Səhnə hərəkətinin plastik həlli | X | | | | X | | X | | |
| Ritmika və ansambl uyğunluğu | | | | | | | | | |
| Caz solfeciosu | | | | X | | X | | | |
| Caz harmoniyası | | X | | | | | | | |
| Ali məktəb pedaqogikası | | | | | | | | X | |
| Elmi-pedaqoji təcrübə | | | | | X | | | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Estrada sənəti kafedrasının müdiri:** ____________ **Məryəm Babayeva**

**ADMİU-nun Musiqi sənəti fakültəsinin dekanı:** ____________ **İradə Xəlilova**